# Yeni Kaledoniyada Fransa müstəmləkəçiliyinə qarşı mübarizə güclənir

Fevralın 27-də Yeni Kaledoniyanın paytaxtı Numeada Fransanın müstəmləkəçilik siyasətinə qarşı növbəti etiraz aksiyası keçirilib. Bu, bir daha sübuta yetirir ki, Fransa müxtəlif xalqların azadlıq arzusunu boğmaqla müstəmləkəçilik siyasətini davam etdirir.



Bu mövzu ilə bağlı "Azərbaycan" qəzetinə danışan Milli Məclisin deputatı Aydın Hüseynov deyib ki, artıq iki əsrə yaxındır ki, Yeni Kaledoniya xalqı Fransanın ağır müstəmləkəçilik siyasətindən əziyyət çəkir: "Orada yaşayan kanak və digər etnik xalqlar müstəqillik mücadiləsi aparırlar. Təəssüf ki, Fransa hökuməti onların səsini eşitmək istəmir, kanak xalqına məxsus torpaqları istismar edir, bu xalqın taleyini sual altında qoyaraq Yeni Kaledoniyanın - kanakların institusional gələcəyinə dair irticaçı siyasət yürüdür. Paris kanak xalqının dekolonizasiya və öz müqəddəratını təyinetmə prosesinə imkan vermir. Bu, müstəmləkə edilmiş xalqın öz ölkəsinin gələcəyi ilə bağlı qərar vermək kimi fundamental hüququna, habelə BMT-nin bununla bağlı qəbul etdiyi qətnamələrə məhəl qoymamaqdır".

Deputatın dediklərinə görə, Makron və onun hökuməti üçün "milli maraq" ondan ibarətdir ki, Yeni Kaledoniya birmənalı olaraq fransızlaşsın. Bu, onların nəzərində Hind-Sakit Okean kimi tanınan və getdikcə həlledici zonaya çevrilən regionda iqtisadi və strateji aktivliyi təmin edir. Fransa hökuməti bununla neokolonial təkəbbürü və kanak xalqına hörmətsizliyi davam etdirməkdə özünə haqq qazandırır. "Yeni kaledoniyalılar buna qarşı son dövrlər daha mütəşəkkil mübarizə aparırlar. Ötən gün onların paytaxt Numeada məhkəmə qarşısında Fransanın müstəmləkəçilik siyasətinə qarşı növbəti etiraz aksiyası keçirmələri də bunu təsdiq edir. Paris isə insan haqlarına və ifadə azadlığına qarşı çıxaraq fəalları həbsə atır. Fransa polisi hər zaman olduğu kimi, beynəlxalq hüquqa hörmət qoymur, ən qəddar üsullardan istifadə edir", - deyə müsahibimiz söyləyib.

Aydın Hüseynov vurğulayıb ki, kaledoniyalılar artıq müstəqillik arzusunu reallaşdırmaq, müstəmləkə dövləti olan Fransanın zülmündən, boyunduruğundan azad olmaq istəyirlər: "Paris rejimi onilliklər ərzində bu ölkəni ağlasığmaz dərəcədə pis vəziyyətə salıb, sərvətlərini mənimsəyib. 1853-cü ildə Kaledoniyaya gələn fransızlar əsl istismarçılıq ediblər. Burada məskunlaşmış kaldoşlar da onlardan narazıdırlar. Bu gün kanak və kaldoş xalqları Fransa hökumətinin yeni müstəmləkəçilik siyasətinə qarşı birlikdə mübarizə aparırlar. Məhz bu məqsədlə onlar Fransa dövlətinin Yeni Kaledoniyanı yenidən müstəmləkəyə çevirmək, kanak xalqını əsarət altına almaq siyasətinə etirazlarını bildirir, müstəqilliklərini bərpa etməklə öz ölkələrinin təbii ehtiyatlarına və zənginliklərinə yiyələnməyi hədəfləyirlər. Müstəmləkə siyasətindən cana yığılmış xalqlar daha yaxşı sosial həyat sürmək və etnik qruplar arasında tarazlığın yaradılmasına nail olmaq istəyirlər".

Deputat yekunda qeyd edib ki, bütün bunlar Fransanın riyakar və müstəmləkəçi xislətindən xəbər verir. Parisin Cənubi Qafqazda hərbi varlığına nail olmaq üçün atdığı addımları da onun müstəmləkəçi ruhunun təzahürüdür. Bu gün Fransa bir çox xalqları, eləcə də kolodoniyalıları cana yığıb.

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 29 fevral, № 46.- S.7.